# TƏXƏLLÜSDƏN DUYĞULANMALAR

Qarşımda bir kitab var: Yaqub Məğrur. "Məğrurnamə". Seçilmiş əsərlər. II kitab. Burada 3 əsas məqam diqqətimə ilişib qaldı. 1-cisi müəllifin təxəllüsü olan Məğrur" kəlməsi. 2-cisi kitabın adında da ifa-




dəsini tapan məğrur sözü. 3-cüsü isə hətta bu seriyadan olan 2-ci kitab. Deməli, bir yox, məhz iki kitab "Məğrurnamə" adı ilə gedib. İndi qayıdıram diqqətimdə ilişib qalan məsələyə. Aşiqlik bütün hallarda alçalmanı ifadə edir. M.Füzulinin "Leyli-Məcnun"unda anasının Leyliyə nəsihətində də "aşiqlik işi qıza nə layiq, neyçün özünə zülm-ziyan edirsən, yaxşı adını yaman edirsən" və s. bu tipli ifadələrdən də aşiqlibın müəllifinin adının yanındakı "Məğrur" təxəllüsü məni şübhəyə salıb düşündürdü. Axı necə yəni məğrur? Sən necə məğrur dayana bilərsən sözün qarşısında?!. Bu ixtiyarımı deyim, bu cəsarətimi deyim, sənə kim verib axı?! Hələ təxəllüsün azmış kimi bunu kitabının da adına çıxardırsan... "Məğrurnamə" - yəni Məğrurun kitabı... Özü də bir yox, ikinci kitabının da adına...

Bu müəmmanı çözməyə çalışıram özlüyümdə. Bir sirr var burda yəqin. Bu sirri tapmaq üçün sözün o üzün də - yəni o biri üzün də görə biləsən gərək. Yəni indiyədək yuxarıda dediklərim məqamlar sözün bu üzü - yəni görünən üzüdür, daha doğrusu, mənim qabartdığım tərəfidir ki, sözə aşiqlər, gözələ aşiqlər alçalmış vəziyyətə düşürlər. O söz bədii sözdür, o gözəl isə "bədii insan"dır. Sözü də, insanı da bədii donda görüb-dəyərləndirənlərin nəsibi-taleyi alçalmaq, alçaqkönüllü olmaqdır. Amma bir də var sözün həqiqi üzü, real tərəfi, bir az da dürüst desəm, sərt tərəfi - satirik qamçı ilə döyəcləyən forması. Axı Yaqub Məğrur publisistikasında sərtdir, sözün həqiqi üzünü göstərir öz yazılarında. Hələ desən, "Təhqiqat" adlı bir qəzetin də təsisçisi, baş redaktorudur. Hələ desən, "MİNA" tv-nin də yaradıcısı kimi mina silahı kimi cəmiyyətdəki antipod halları vurub dağıtmaq istəyi ilə canfəşanlıq göstərir. Atalar deyimindəki kiyin "yaxşı adı yaman etmək" - başqa cür ifadə etsək, mənliyinin alçaldılması kimi mənalandırılması görünür. Şeir-sənət vurğunu olan söz aşiqləri də həmişə sözün-sənətin, gözəlliyin qarşısında özlərini aşağı tutmuş, özlərini alçaq mərtəbədə görmüşlər. Bu səbəbdən də Xəstə Qasımın timsalında özünü xəstə, Adil Cəfakeşin timsalında özünü cəfakeş, Qəmkeş Allahverdinin şəxsində qəmkeş, Miskin Abdalın dünyasında özünü miskin, yəni yoxsul və s. kimi özlərini sözün-sənətin, eşqin qarşısında aciz, alçaq sanmışlar. Qısası, gözəllik aşiqləri kimi, söz aşiqləri də həmişə alçaq adamlar olmuş, özlərini həmişə aşağıda tutmuş - alçaqkönüllülük nümayiş etdirmişlər. Kiməsə, ya nəyəsə heç vaxt yuxarıdan aşağı baxmamış, əksinə, özlərini alçaq tutub aşağıdan - altdan yuxarı baxmışlar. Başqa sözlə, gülün qönçəsin, sözün incəsin dərmək həvəsinə düşənlər həmişə alçaqdan gəlmişlər, özlərini gözəlin də, sözün də qarşısında aciz-alçaq görmüşlər, hətta eşqin ucalığı qarşısında özlərini aşağı tutmuş, miskin görkəm alıb alçalmışlar da. Bu, əslində aşiqliyin doğurduğu bir haldır. Başqa cür fikrimizi ifadə etsək, söz aşiqləri üçün də, gözəllik aşiqləri üçün də lovğalanmaq, təkəbbürlü olmaq, özünü yuxarılarda görmək, üstdən aşağı baxmaq, elə o cümlədən də qürurundan enməmək, qürurlu, məğrur görünüşdə görünmək və s. kimi xüsusiyyətlər yad hal olmuşdur.

Bütün bu kimi sadaladığım əlamətləri düşündükdə, qarşımdakı kimi, sözün birin deyəndə, birin qoymaq olmaz qalsın. Gərək sözün ikisini də deyəsən. Onda bir çox mətləblər üzə çıxır. Necə ki, mən bu yolla üzə çıxarda bildim Yaqub Xudiyevin təxəllüsündəki "Məğrur" ifadəsinin hardan qaynaqlandığını.

Sağ olsun Yaqub müəllim ki, hələ kitabının üzünə baxanda məni bu qədər danışdırıb-dilləndirə bildi. Bir dəfə də rəhmətlik professor Kamal Hacıyevin kitabından bu cür təsirlənib "Kitabın üz qabığından oxuduqlarım" adlı yazı ilə çıxış etmişdim. Bir dəfə də rəhmətlik şairə Fərqanənin kitabının üz qabığından "kitabın içindəkiləri oxumağa" çalışmışdım. Yəqin ki, bunu da mənim qəribəliyim kimi dəyərləndirəcəksiniz. Amma kitabın üzünə baxmaqla içindəkiləri oxuya bilmək də fəhm, intuisiya, elə həm də cəsarət tələb edir.



***Şakir ALBALIYEV***